Səməndər MƏMMƏDOV,
Prezident təqaüdçüsü,
şair-publisist

# Ölüm bilsəydi ki, kimi öldürür, özü ölərdi xəcalətindən

*Zəlimxan Yaqub saz üstə yazılan sözün, sözü ucaldan sazın ustadıdır.*

*Həsən Əziz oğlu Həsənov*

Sərlövhəyə çıxardığım bu müdrik kəlamın müəllifi kimdir, bilmirəm, lakin ürəyi saray, özü haqdan gələn haray, söz mülkünün sultanı olan söz fatehi Zəlimxan Yaqubun ünvanına deyəndə, sanki təsəlli tapıram.

Zəlimxan Yaqub şeirlərinin birində yazır:

*Şər ilandı, şər əfidi?*
*Saflıq ömrün şərəfidi.*
*Qoru görüm şərəfi di,*
*Qorudunsa, yaşamısan.*

Zəlimxan Yaqub Allah verən ömrü şərəflə yaşadı. Şərəfi qoruya-qoruya yaşamaq, şərəflə yaşamaq hər adama qismət olmur.

Zəlimxan Yaqub xalqını sevdi, mədəniyyətini sevdi və dövlətini sevdi. Vurğunu olduğu müqəddəs vətəninin pərvanəsinə çevrildi.

Zəlimxan Yaqubdan nə qədər yazsaq, ünvanına nə qədər gözəl sözlər işlətsək də, onun aydan arı, sudan durru, torpağın təkindən bülluq bulaq kimi qaynayan poeziyası deyilən sözlərdən yüksəkdə durur. Bax, budur Zəlimxan Yaqub möcüzəsi!

XX əsr Azərbaycan aşıq sənətinin ən görkəmli nümayəndələrindən biri olan ustad aşıq Əmrah Gülməmmədovun ölümündən təsirlənən şair yazırdı:

*Başımıza gəldi nələr,*
*Ay Zəlimxan qaldıq mələr.*
*Açıldı çox möcüzələr,*
*Əmrah sirr gəldi, sirr getdi.*

Şeirdən nümunə gətirdiyimiz bu misraları bu gün Zəlimxan Yaqubun özünə də aid etmək olar. Biz onu tanıdığımız qədər də tanımadıq, Türk dünyasına sirr gəldi, sirr getdi.

Zəlimxan Yaqub kimdir? Azərbaycan ədəbiyyatında mövqeyi nədir? Bu sualın cavabı hər kəsə aydın olsa da, onun haqqında deyilən fikirlərdən nümunələr gətirmək istəyirəm. Millət vəkili, AMEA-nın müxbir üzvü Nizami Cəfərovun fikrincə "Zəlimxan Yaqub bu dünyaya xüsusi missiya ilə gəlib: onun vəzifəsi böyük sənətin mövqeyində dayanaraq, böyük idealları təqdiq etməkdən, xalqla dövlət arasında əsrlər boyu ehtiyac duyulan harmoniyanın yaranmasına sənətkar-mütəfəkkir xidməti göstərməkdən ibarətdir". Zəlimxan Yaqubu poeziya hökmdarı adlandıran Xalq şairi Xəlil Rza Ulutürk isə belə deyirdi: "Zəlimxan yeganə şairdir ki, Azərbaycanda heç bir təbliğata ehtiyac yoxdur". Xalq şairi Hüseyn Arif - "Zəlimxan Yaqubu mənə doğmalaşdıran, sevdirən cəhət məhz budur ki, o əsas enerjisini bəziləri kimi özünütəbliğə yox, təsirli, bəşəri mövzuları xalq ruhuyla, milli zəminlə bağlamağa sərf edir", - deyirdi. Musa Yaqub onu sinəsi dolu şair adlandırır və yazır ki, Vətən və torpaq sevgisi, bəlkə də, Zəlimxan şeirində birincidir. Xalq yazıçısı Mövlud Süleymanlı yazır: "Sadəcə, bir şeyi deyim: onun yaradıcılığı mənim türkcəmin çox doğma sözlərindən, duyğularından götürülüb ki, bu duyğuların, sözlərin minlərcə yaşı var. Minilliklərin də ruhunu ifadə eləyir".

AMEA-nın müxbir üzvü, görkəmli filosof, müasir Azərbaycan fəlsəfi fikrinin ən görkəmli nümayəndəsi Səlahəddin Xəlilov isə bu qənaətdədir: "Hərdən mənə elə gəlir ki, Zəlimxan Yaqubun yazdıqları onun özününkü deyil, xalq yaradıcılığıdır. Zəlimxan isə, ancaq ifaçıdır. Görünür, o bizimlə milli-mənəvi dəyərlərimiz arasında, bu günlə keçmişimiz arasında, sadəcə vasitəçi olur".

Zəlimxan Yaqubun ölüm xəbərini Azərbaycandan kənarda eşidən Millət vəkili, Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov - "Sözün özü qədər böyük olan ustadı itirdik", - deyərək yazır: "Zəlimxan Yaqub müasir Azərbaycan poeziyasında sütunudur. Zəlimxan dil məbədidir. O, ayrıca mənəvi dəyərdir. O dəyər ayrıca dünyadır".

"Göy üzündə Allahın, yer üzündə bəndənin qədrini bilən" şair işıq ömrü yaşadı, nur ömrü yaşadı. Ən əsası, sözün həqiqi mənasında haqdan gəlib, haqqa gedən yolun yolçusu oldu. Həmişə dövrün nəbzini tutan, həyatla ayaqlaşan, hamını düşündürən şeirlər yazdı. "Kaş bu yuxudan ayılmayaydım", "Çanaqqala zəfəri", "Şuşada balam qaldı" kimi bir-birindən gözəl şeir və poemalar onun son yaradıcılıq nümunələridir.

Ona həsr etdiyim şeirin bir bəndində yazmışam:

*Sazdı, sözdü diləkdi,*
*Yurda bağlı ürəkdi,*
*Söz mülkündə pələngdi,*
*Söz fatehi Zəlimxan.*

Söz mülkünün bükülməz biləkli pələngidi Zəlimxan Yaqub. Nə qədər xalqımız var, Zəlimxan Yaqub da var. Çünki Zəlim-



xan Yaqub və onun poeziyası həmişə sağdı, həmişə diridi. "Öləndə də qəbrim qədər Azərbaycan torpağıyam", - deyirdi Zəlimxan Yaqub. Doğrudan da, təpədən dırnağadək Bütöv Azərbaycandı, Vətən torpağıdır Zəlimxan Yaqub.

...Elə torpaq olmaz ki, orada çayır olmasın. Elə bir adam olmaz ki, yeriyəndə ayağı büdrəməsin. Zəlimxan Yaqub poeziyası, bəlkə də, Türk dünyasında yeganə poeziyadır ki, şeiriyyətində bir dənə də çayır yoxdur. Zəlimxan Yaqubun yaradıcılığı elə bir yaradıcılıqdır ki, orada büdrəmələrə rast gəlməzsən. Elə bil, bütün sözlər özünün dediyi kimi, haqdan gəlir.

Məktəbimizin pedaqoji kollektivinin və şagird kontingentinin iştirak etdikləri tədbirlərdə ən çox istinad etdikləri sözlər, əzbər dedikləri şeirlər də məhz Zəlimxan Yaqubun poeziyasından nümunələrdir. Çünki həyatımızın elə bir sahəsi yoxdur ki, o sahəyə Zəlimxan Yaqub yüksək səviyyədə qələm çalmasın.

Mən Sabunçu rayonundakı 271 saylı məktəbə direktor təyin olunandan sonra dəfələrlə burada Zəlimxan Yaqubla görüşlər keçirmişik. Həmin görüşlərə sənət adamlarını, görkəmli ədəbiyyat xadimlərini, millət vəkillərini dəvət etmişik. "Çanaqqala zəfəri" poemasının təqdimatını da məktəbimizdə yüksək səviyyədə keçirdik. Bu görüşlərdə aldıqları təəssüratlar uşaqların dünyagörüşünü, estetik zövqlərini zənginləşdirib. Kollektivimiz, qonaqlarımız həmin günü, həmin anı bütün ömürlərinə naxış hesab ediblər.

İki çağırış Milli Məclisə deputat seçilmiş mərhum professor Şamil Qurbanov həmişə deyərdi ki, Zəlimxan Yaqub qeyri-adi istedad sahibidir. İnsanlığın, elmin zirvəsində dayanan görkəmli alimlərimizdən Xudu Məmmədov isə deyirdi ki, Zəlimxan Yaqubun beynini öyrənmək lazımdır ki, insanda bunca iti yaddaş hardandı. Elə bilirdinn, usta bağlamıyıb, zərgər düzməyib, onun yaddaşı da, qabiliyyəti də, ilhamı da Haqdan gəlib. Məqalələrimdən birində yazmışdım: "Ən məşhur söz adamı gəlsin, Zəlimxan Yaqubun hardasa bir beytini götürüb ondan irəli söz salsın - mümkün deyil".

Zəlimxan Yaqub böyük ağıl və böyük ürək sahibi idi. İnsanlara, onların problemlərinə qarşı o qədər diqqətçil idi ki, ona pənah gətirən bir nəfəri belə naümid qaytarmazdı. Dostlara qarşı hədsiz dərəcədə sayğılı idi. Yaxşı xatırlayıram, bir gün mənə zəng elədi ki, "Qadan alım, hardasan?" Dedim: "Məktəbdə". Dedi: "Bakıxanov qəsəbəsində mərkəzi kitabxanada görüşümüz var, mən istəyirəm ki, gəlib məni götürəsən, məclisi də özün aparasan". Dedim: "Baş üstə". Sonra məktəbdən də müəllimlərdən, şagirdlərdən götürüb tədbirə getdik. Görüş o qədər gözəl keçdi ki, ayrılmaq istəmirdik. İştirakçılara, çıxış edənlərə o qədər həssas yanaşar, nitqlərə o qədər diqqət edərdi ki, görürdüm adi bir sözü ürəyincə işlətməyəndə müdaxilə edər, doğru tələffüz, dürüst intonasiyanı öyrədərdi.

Sözə həssas yanaşırdı, məsuliyyətlə yanaşırdı. Bilirdi ki, hər bir söz sənət nümunəsidir. O, doğrudan da söz mülkünün həqiqi mənada sultanıydı. Hüseyn Arifi, Səməd Vurğunu, Osman Sarıvəllini özünə ustad bilirdi. Həmişə deyərdi ki, Səməd Vurğun ədəbiyyatımızın, poeziyamızın generalissimusudu. Bəhrələndikləri şairləri daima yüksəkdə tutardı ki, bu da onun insanlığına, qədirşünaslığına dəlalət edirdi. Onun xalqa, mədəniyyətə xidmətini yüksək dəyərləndirən Ulu Öndər Heydər Əliyev haqqında qədirşünaslıqla yazırdı:

*Basdı bağrına bu cahan səni,*
*Göylərdən göndərdi Yaradan səni.*
*Qorudun müqəddəs Azərbaycanı,*
*Sıyrılmış qılıncım, cəsarətimsən.*

Zəlimxan Yaqubla 1973-cü ildən başlayan tanışlığımız sonradan sözün həqiqi mənasında dostluğa çevrildi. Yaxın dostlarımızla tez-tez, ən geci ayda iki dəfə görüşərdik. Elə bil, bizi birləşdirən əvəzolunmaz dəyər idi Zəlimxan Yaqub. İndi adaş dostlarımıza - hörmətli Orucov Vidadi müəllimə, Səlimov Vidadi müəllimə, Borçalımızın ağsaqqalı, hörmətli Məhəbbət Qarabağlıya sual verirəm ki, bəs, bundan belə bizim axırımız necə olacaq görəsən?!

Sanki bir universitet idi Zəlimxan Yaqub. İstedad, qabiliyyət hər adamda ola bilər. Amma onların üzə çıxması üçün mühit lazımdı. Bizim üçün mühit yaratmışdı Zəlimxan Yaqub, formalaşdırdıq o mühitdə. Yaxınlaşırdıq, ara açılırdı, səmimiyyət olurdu, "can" deyib "can" eşidirdik. O mühitdə, onun yaratdığı atmosferin rayihəsini duyanlar indi barışmaq, qəbul eləmək istəmirlər onun yoxluğunu.

Zəlimxan Yaqubla bağlı xatirələrimi toplasam, bir kitab olar. Bir məlum, məşhur həqiqəti deməyə özümü borclu bilirəm ki, mənə və ailəmizə həmişə diqqət göstərib. Oğullarım Tural və Ramilin toyunda ürəklə iştirak edib, xeyir-dua verib. Ailəmizdə baş verən çətin günlərdə bizimlə olub. Təmkinli olmağa çağırıb. Yadımdadı, qardaşım Sərdarın ailəsində gərginlik vardı. Hava şəraiti çox pis olan bir gün idi. Bununla belə, Zəlimxan Yaqub gəldi, öyüdü ilə, məsləhətləri ilə, çəkdiyi misallar ilə həmin ağırlığı kərpic-kərpic götürdü. Mən bunları heç vaxt unutmaram.

60 illik yubileyimdə məclisi şərafətə mindirdi. Sonralar dostlar, yoldaşlar arasında fəxarət hissi ilə deyirdim ki, mənim yubileyimdə dünyamızın böyük şairi Zəlimxan Yaqub iştirak edibsə, demək, bütün Türk dünyası orda olub. Həqiqətən də, Zəlimxan Yaqub hansı məclisdə olardı, həmin məclisi şərafətə yüksəldərdi: harda oturardı, o yer məclisin başı olardı. Şadlandırardı, şənləndirərdi, nikbin, xoş ovqat bəxş edərdi.

Haqqımda belə fikirlər də yazmışdı: "Səməndər Zəlimxanın gəzən kitabxanasıdır. Mən bununla fəxr edirəm. Belə adamların olması cəmiyyətin, xalqın, insanlığın xeyrinədir.

Yalandan heç vaxt ad olmaz, yalandan şöhrət olmaz. Şöhrət varsa, onun kökündə halallıq, halal zəhmət durur, yuxusuz gecələr və ziyalı mədəniyyəti durur. Mən qardaşımı bağrıma basıb öpürəm, həmişə adı uca olsun, eşqi sönməz olsun. Zəlimxan kimi dostlar da, heç vaxt onun ətrafından əskilməsin!".

Onun özünün 60 illiyi Borçalıda da yüksək səviyyədə qeyd olundu. Bizim çox gözəl ziyalılarımızdan biri, uzun müddət Borçalıda işləmiş, təəssüf ki, həyatdan da vaxtsız getmiş Arif Əliyev onda sağ idi və həmin məclislərdən birini aparırdı. Zəlimxan qağa növbənin mənə gəlib çatmasını gözləmədi, dözməyib dedi: "Sözü növbədənkənar qardaşım Səməndərə ver". Mən də həmişə onun poeziyasının vurğunu olduğumdan, şeirlərini özünəməxsus tərzdə söyləyirdim. Həmişə də bəyənirdi.

Adam bilmir onun haqqında hardan desin, hardan başlayıb harda qurtarsın.

Böyük şairlə xalqın vida görüşündə gözəl sənətkar, xalq artisti Mənsum İbrahimov öz çıxışında dedi ki, belə adamlar iki əsrdə bir dəfə yetişir. Görkəmli alim Nizami Cəfərovun Zəlimxanın istedadından, qabiliyyətindən danışaraq vurğuladı ki, Zəlimxan Yaqub xalqdan, millətdən getdi, onun başqa şairlərdən fərqi ondan ibarətdir ki, Azərbaycan ədəbiyyatını, poeziyasını əzbər bilirdi.

Nə qədər adam məni şairə simsar bildiklərindən, zəng edib başsağlığı verdi. Sabunçu rayonunda məktəb direktoru işləyən şairə Zöhrə Qaraqızı şeir yazıb mənə göndərib:

*Şairlər olacaq, şeir olacaq,*
*Çiçəklər açacaq, güllər solacaq.*
*Dünya boşalacaq, dünya dolacaq,*
*Zəlimxan doğulmaz daha dünyada.*

Doğrudan da, Zəlimxan Yaqubun timsalında dünyadan - Türk dünyasından gözəl bir insan köçdü. Yeri uca zirvələr səltənəti olan gözəl bir insan. Allah o insana qəni-qəni rəhmət eləsin. Cənnətməkan olsun. Nə qədər Azərbaycan xalqı var, Azərbaycan dövləti var, Zəlimxan Yaqubun məkanı qədirbilən həmvətənlərimizin ürəyidi. Çünki o, nə yazdısa, ürəkdən yazdı, nə dedisə, ürəkdən dedi. Dedi ki, öləndə də qəbrim qədər Azərbaycan torpağıyam.

Təpədən dırnağadək Vətən idi, Azərbaycan torpağıydı Zəlimxan Yaqub.

Zəlimxan Yaqub deyirdi ki, "yazanda elə yaz, kitabın sənin, qalından olmasın, qalandan olsun". Bu mənada, onun qələmindən nə çıxıbsa, Azərbaycan xalqına qalan sərvətdi.

Yazılarımın birində Zəlimxan Yaqub haqda fikrimi qısaca olaraq belə ifadə etmişəm: "Böyük söz fatehi". Və nədənsə mənə elə gəlir ki, bu fikri ilk dəfə mən söyləmişəm, bu üç sözü eyni məxrəcə mən gətirmişəm. Bu, doğrudan da belədir. O, aydın, axıcı, "durnanın gözündən də duru" sözlərdən istifadə edir, dumduru beytlər, dumduru şeirlər ərsəyə gətirirdi.

Hansı şeirini oxuyursan, təpədən-dırnağadək hikmətdi.

Zəlimxan Yaqubun əsərləri bədii idrakın hüdudlarını nəhayətsizliyə qədər genişləndirən və çağdaş həyatımızın gerçəklərindən güc alan aforizmlərlə doludur. Onun poeziya nümunələrini "bu yaxşıdı, o biri daha yaxşıdı", - deyib seçim aparmaq olmaz. Ən məşhur söz xiridarları belə deyə bilməz ki, Zəlimxan Yaqubun filan sözü hikmətlidi, digəri yox. Fikrimi qüvvətə mindirmək üçün elə Zəlimxan Yaqubun şeirlərindən birinə müraciət edirəm:

*Öz eşqi var, hər ucalan zirvənin,*
*Dağa təpə deyilməz ki, deyilməz.*
*Şimşəklərin pəncəsində didilməz,*
*Sel ağzında yeyilməz ki, yeyilməz.*

*Diri var ki, tez bükəsən ağlara,*
*Ölü var ki, dayaq olub sağlara.*
*Qarğaları qaldırasan dağlara,*
*Qartal kimi öyülməz ki, öyülməz.*

*Hər ucalıq bir alçağa dərd olar,*
*Üzə gülər, ürəyində pərt olar.*
*Ömrü boyu mətin olar, mərd olar,*
*Sərt qayalar əyilməz ki, əyilməz.*

**Söz mülkünün bükülməz biləkli pələngi olan Zəlimxan Yaqub həmişə sağdır, həmişə diridir və nə qədər ki, qədirbilən xalqımız var, müstəqil dövlətimiz var, "Tutacaq dünyanı səsim-sorağım, dünyadan havayı getməyəcəyəm", - deyən Zəlimxan Yaqub da var olacaqdır.**